# Uşaq ədəbiyyatı problemləri Bəkir Nəbiyevin tədqiqatlarında

**Əsmər Dadaş qızı Hüseynova**
*Nizami Gəncəvi adına Ədəbiyyat*
*İnstitutunun Ədəbi tənqid şöbəsinin elmi işçisi*
**E-mail:** esmer74.17@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. Q.N. Süleymanova,
filol.ü.f.d., dos. F.N. Abdurahmanova

**Açar sözlər:** ədəbiyyat, yaradıcılıq, uşaq, həyat, gənc, tədqiqat, inkişaf
**Ключевые слова:** литература, творчество, дети, жизнь, молодежь, исследования, развитие
**Key words:** literature, creativity, children, life, youth, research, development

Uşaq ədəbiyyatının inkişaf meyllərini, onun yeni yaranan nümunələrini təhlil və ümumiləşdirmək cəhdi keçən əsrin 50-ci illərindən başlayaraq Bəkir Nəbiyevin elmi-nəzəri axtarışlarında fəal mövqe qazanır. Alimin uşaq ədəbiyyatına belə bir baxış bucağından yanaşma nümayiş etdirməsi, hər şeydən əvvəl, dövrün ədəbi-bədii təcrübəsində yetişməkdə olan uşaq və yeniyetmələrin dünyagörüşünə, kamil insan və şəxsiyyət kimi formalaşmasına verilən tələblərlə sıx bağlı izah oluna bilər. Uşaq və gənclər üçün nəzərdə tutulan ayrıca bir nəşriyyatın: Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatının – Uşaqgəncnəşrin fəaliyyət göstərməsi, ayrı-ayrı nəşriyyatlarda dünya ədəbiyyatından uşaqlar üçün yazılan nümunələrin Azərbaycan dilinə tərcümə edilərək gənc oxucuların ixtiyarına verilməsi bu illərdən başlayaraq ardıcıl və sistemli xarakter alır.

Sovet dövrünün və ideologiyasının bu baxımdan ədəbiyyat qarşısına qoyduğu son dərəcə ciddi və təxirəsalınmaz tələblər cəmiyyətin əxlaqi-mənəvi təkamülünə hesablanan bir addım idi. Daha dəqiq deyilsə, böyüməkdə olan sovet adamının yetkin səviyyəyə çatması prosesində qarşıya qoyulan vəzifələrin bölgüsündə ədəbi-bədii proses də kənarda qalmır, o, bu tələblərin icrasını öz üzərinə götürür. Vaxtı ilə xalq şairi Səməd Vurğun uşaq ədəbiyyatının qarşısında duran mühüm yaradıcılıq vəzifələrindən bəhs edərək yazırdı: "İnsan həyatının ilk və gözəl mənası uşaqlıqdan başladığı üçün biz də bu məqaləmizdə ilk məsələ olaraq məna gözəlliyindən bəhs etmək istəyirik. Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır. Mənası dayaz qayə və məqsədi aydın olmayan, otərgi hisslər və təsirlər tərənnüm edən əsərlər uşağın hafizəsində ani bir qığılcım kimi parlayıb sönür. Dediyimiz məna gözəlliyi həqiqətlə nəfəs almalıdır.

Uşaq qəlbini tərbiyə etdiyimiz zaman o qəlbə həyat və təbiətin həqiqətləri ilə qanad verməliyik. Bu həqiqət o qədər zəngin, rəngarəng, mənalı və gözəldir ki, onun heç bir boyağa, rəng və uydurmalara ehtiyacı yoxdur" (1, s. 311-312). Bəkir Nəbiyevin uşaq ədəbiyyatına həsr olunan ilk yazıları keçən əsrin 50-ci illərinin birinci yarısına təsadüf edir. Bu yazıların bir qismi yeni yaranan ədəbi-bədii nümunələr haqqında qələmə alınan məqalə-rəylərdir. Alimin uşaq ədəbiyyatına həsr olunan ilk məqaləsi də məhz yenicə işıq üzü görən kitablara həsr olunması ilə əlamətdarlıq qazanır. Bu baxımdan "Azərbaycan" jurnalında dərc olunan "Dörd uşaq kitabı haqqında" adlı məqalə diqqəti cəlb edir. Məqalədə dörd kitabdan üçü – Əliağa Kürçaylının "Arifin bağçası", Novruz Gəncəlinin "Üç dost", Qabil İmamverdiyevin "Bol məhsullu tarlada" uşaqlar üçün qələmə alınmış şeir topluları, Həbibənin (Həbibə Zeynalova – Ə.H.).

"Kiçik hekayələr"i isə adından da göründüyü kimi, kiçik yaşlı uşaqlar üçün kiçik janrda qələmə alınan nümunələri təhlil etmək, bu əsərlərin əsas məziyyətləri barədə yekdil təsəvvür

yaratmaq məqsədi daşıyır. Müəllif ilk olaraq Həbibənin hekayələrinin başlıca xüsusiyyətlərini açmağa, uşaq psixologiyasına məxsus olan əsas cəhətləri təhlil etməyə çalışır. Təhlilin kitaba daxil edilən ilk hekayələrdən biri olan "Yeddinci qardaş" üzərində təhlilin aparılması əslində uşaqların sənət-peşə seçmə və belə bir seçim prosesində onların keçirdiyi hisslərin inandırıcı şəkildə təsvirə gətirilməsi ilə nəticələnir. Məsələnin bu tərəfini Bəkir Nəbiyev həssaslıqla duyur, yeddi qardaş arasında gələcəklə bağlı düşüncələrə aydınlıq gətirilməsində ailədə aparıcı sima olan ananın rolunun düzgün müəyyən edilməsini yazıçının ədəbi uğuru kimi təqdir edir. Uşaqların gələcək haqqında şirin xəyalları, bu əlçatmaz xəyalların gerçəkləşməsinə dərin inamın aşılanmasında yaşlı nəslin, xüsusən də valideynlərin rolu məsələsinin qabardılması sovet dövrünə məxsus tərbiyə sisteminin bu gün öz əhəmiyyət və dəyərini itirməyən ümdə vəzifəsi olaraq qalması kifayət qədər əsaslandırılır.

Qardaşlardan İmranın, Vaqifin, Elçinin və Kazımın yeni doğulan qardaşları barədə irəli sürdüyü istək və fərziyyələrin uşaq düşüncəsi ilə tamamilə səsləşməsi və üst-üstə düşməsi məsələsinin təbii və inandırıcı görünməsini tənqidçi xüsusi diqqətə çatdırması bu mənada inandırıcı təsir bağışlayır. Uşaqlar üçün nəşr olunan şeir kitablarında məktəblilərin öz yaşıdları ilə səmimi münasibət qurmaq, fərdiyyətçilikdən kollektivçiliyə meyli formalaşdırmaq kimi müsbət cəhətlərin aşılanması baxımından Əliağa Kürçaylının "Arifin bağçası" kitabındakı şeirlərin mövzu və ideya baxımından fərqləndirilməsi bu mənada müsbət təsir bağışlayır.

Məqalədə şairin məktəb həyatından alınan adi bir mövzuya yaradıcı şəkildə yanaşmasını diqqətə çəkən tənqidçi doğru olaraq dəfələrlə bədii təsvirə gətirilən həyat həqiqətlərinə, real gerçəkliklərə yeni baxış və münasibət bildirilməsini də sənətkar üçün vacib şərtlərdən biri hesab edir, necə deyərlər istedad burada öz sözünü deyir, dəfələrlə yazılmış mövzuya yeni biçim və don geyindirməyə o ustalıqla nail ola bilir. Tənqidçi doğru olaraq yazır: "Mövzu oxşarlığına baxmayaraq, Kürçaylının əsəri daha yaxşı təsir bağışlayır, çünki şair sadəcə olaraq bir əhvalatı nəzmə çəkməmiş, təsvir etdiyi hadisəyə fəal yaradıcılıq münasibəti bəsləmişdir" (2, s.142).

Bəkir Nəbiyevin "Arifin bağçası" kitabı haqqında bir o qədər də inandırıcı görünməyən iradları da məqalədə açıq-aydın hiss edilməkdədir. O yazanda ki: "Arifin bağçası" kitabında nöqsanlar da vardır. Məktəbin pioner təşkilatı əsərdə göstərilməmiş, pionerlərin bağ salmaq işi məktəb pioner təşkilatının ümumi işindən təcrid olunmuşdur" (2, s. 142). Az qala sovet dönəminin zavod, müəssisə, kənd təsərrüfatı sahələrinə aid edilən partiya, ictimai-ideoloji təşkilatlarla işin, birgə fəaliyyətin mexaniki olaraq məktəb həyatına şamil edildiyi bu mülahizələrdə özünü büruzə verir. Ağac əkməyi, yaşıllıq salmağı mütləq şəkildə pioner təşkilatı ilə əlaqələndirməyə nə ehtiyac var?! Söhbət burada uşaqların birgə fəaliyyətindəki əzmkarlıqdan, dostluq və yoldaşlıq münasibətlərindəki səmimiyyətdən gedə bilər.

Bəkir Nəbiyev bu sırada hər bir kitabın ayrı-ayriliqda tərtibi məsələlərinə də xüsusi diqqət və həssaslıqla yanaşması təbii görünür. Məlumdur ki, bədii mətnə uyarlı şəkildə çəkilən rəsmlərin əsərin ümumi məzmununu dərk və qavrayışda əhəmiyyətli rol oynamasını isbat etməyə elə bir lüzum yoxdur. Bu, uşaqlar üçün qələmə alınan bədii əsərlərdə xüsusi əhəmiyyət kəsb edir.

Oqtay Sadıqzadənin "Bol məhsullu tarlada", Davud Kazımovun "Üç dost" kitabına çəkdiyi şəkil və illüstrasiyalar təqdir olunduğu halda, rəssam E.Şalıginanın "Kiçik hekayələr" kitabına çəkdiyi şəkillərin bədii mətndəki məzmun və ideyanın açılışına xidmət etmədiyi üzə çıxarılır. Bəkir Nəbiyevin həmin kitabdakı rəssam işi ilə bağlı təəssüratlarında maraq doğuran mülahizələrdən kiçik bir qeydi nəzərdən keçirməyə çalışaq: "...E.Şalıginanın "Kiçik hekayələr" üçün çəkdiyi şəkillər oxucunu təmin etmir. Bu şəkillərdəki insanlar, xüsusilə uşaqlar inandırıcı deyillər; şəkillərdəki bütün oğlan və qızların başları yalnız bağladıqları lentlə fərqlənir. Kitabın

17-ci səhifəsində təsvir olunmuş ananın da üzü uşaqların üzünün azacıq böyüdülmüş forması olduğundan o, 4-5-ci sinif şagirdini xatırladır. Buna görə də həmin şəkildə rəssamın verməyə çalışdığı ana məhəbbəti və səmimiyyətinin ifadəsi çox quru və sünidir" (2, s.143).

Bəkir Nəbiyevin elə həmin ildə uşaq şeiri əsasında bəstələnən mahnı mətnlərinə həsr olunan başqa bir məqaləsində qaldırılan məsələ də özünün aktuallığı ilə fərqlənirdi. "Uşaq nəğmələrinin mətni haqqında" adlı məqalədə isə bədii mətnlə musiqinin vəhdət yaratması, uşaq dünyasına məxsus sadə və səmimilik vacib şərtlərdən biri kimi önə çəkilir.

Daha sonrakı onilliklərdə alimin dərsliklərdə uşaq şeirindən istifadə imkanları, məktəblilərin yaş səviyyəsinə uyğunluğu, dünyagörüşünün formalaşmasına yardımçı olan ədəbi-bədii nümunələrin dərsliklərə daxil edilməsi zərurəti xüsusi olaraq nəzərə çatdırılırdı.

Keçən əsrin 70-ci illərinin əvvəllərində ümumtəhsil məktəblərinin 5-ci sinifləri üçün nəşr olunan Ədəbiyyat dərsliyinin həm müəlliflərindən biri kimi Bəkir Nəbiyevin bu sahədə fəaliyyəti elmiliklə metodikanın imkanlarından yaradıcı şəkildə yararlanmanın real nümunəsi idi. Tanınmış metodist alim Ağadadaş Babayevlə birlikdə yazılan həmin dərslik müəyyən təkmilləşmələrlə on iki tədris ili ərzində məktəblərdə istifadə edilməsi uşaqlar və məktəblilər üçün ədəbi-bədii materialların ən yaxşı nümunələrinin seçilərək tərtib edilməsi istiqamətində görülən məqsədyönlü iş kimi qeyd oluna bilər.

Bəllidir ki, cəmiyyət həyatında baş verən dəyişikliklər və yeniləşmələr dərsliklərin, tədris vəsaitlərinin də yeniləndirilməsini bir zərurət kimi qarşıya qoyur. Səksəninci illərin sonlarında istər keçmiş postsovet məkanında, istərsə də müttəffiq respublikaların bir çoxunda ana dili, oxu və ədəbiyyat dərsliklərinin nəşri və yeniləşməsi ilə bağlı müzakirələrin keçirilməsi Azərbaycan elmi-pedaqoji ictimaiyyətini dərindən düşündürmüş, bu istiqamətdə ciddi və narahatlıq doğuran fikirlər ayrı-ayrı mətbuat səhifələrində və kütləvi informasiya vasitələrində səsləndirilmişdir. Əlbəttə, sırf ixtisaslaşma baxımından qaldırılan bu problemlərin izah və şərhində daha çox metodistlər və pedaqogika sahəsində çalışan mütəxəssislər iştirak etmiş, son dərəcə aktuallıq kəsb edən bir sıra məsələlərə aydınlıq gətirməyə çalışmışlar. Belə müzakirə və polemikalara Bəkir Nəbiyevin fəal və işgüzar şəkildə qoşulması əslində uzun illər orta məktəblər üçün hazırlanan "Ədəbiyyat" dərsliklərinin müəlliflərindən biri kimi onun bu sahədə qazandığı təcrübə ilə sıx bağlı idi. Uzun onilliklərin təcrübəsindən çıxış edərək fikir söyləmək, yeni dövrün tələblərini nəzərə alaraq proqram və dərsliklərin yaranması ilə bağlı müzakirələrə Bəkir Nəbiyevin qoşulması belə bir istəkdən irəli gəlirdi. Bu baxımdan alimin səksəninci illərin sonlarında qələmə alınan "Balalarımızın həyat və mənəviyyat kitabı" adlı məqaləsi xüsusi maraq və aktuallıq kəsb edir.

Məqalədə dərsliyin vəzifə və funksiyaları, şagirdlərə ilk bilik və məlumatların aşılanmasında əvəzsiz rolu belə izah və şərh olunur: "Hamı bilir ki, ən yaxşı dərslik şagirdin həyat kitabının bir fəsli olmalıdır. Şagird öz Ana dili, oxu və ədəbiyyat kitablarındakı biliklərə yiyələndikcə dünya, insanlar, Vətən, onun tarixi və taleyi haqqında məlumatı çoxalır, xəyalı bu vaxtadək təsəvvür etmədiyi yeni aləmlərə qanadlanır, bədii sözün incəliklərinə diqqət yetirməyə, şeirin sirrinə, sehrinə məhrəm olmağa başlayır, bunların əsasında isə kiçik yaşlıların dünyagörüşü və xaraktercə formalaşması prosesi sürətlənir" (3, s.70).

Bəkir Nəbiyev dərsliklər hazırlanarkən məktəblilərin yaş psixologiyasının, seçilən bədii materialların sadə və anlaşıqlı bir dildə olmasını da vacib şərtlərdən biri hesab edir, bu xüsusiyyətləri özündə cəmləşdirən mətnlərin yetişməkdə olan kiçik yaşlı məktəblilərin əxlaq və mənəvi təkamülünə göstərə biləcəyi təsirə toxunaraq belə bir nəticəyə gələrək yazırdı: "Aydın məsələdir ki, belə dərsliklər üçün seçilən ədəbi əsərlərdə yüksək ideallıqla bədiilik, böyük məqsədlə onun ifadə mədəniyyəti üzvi vəhdətdə təzahür etməli, material uşaqların psixikasına,

yaş xüsusiyyətlərinin tələblərinə cavab verməli, dili aydın, anlaşıqlı, ahəngdar olmalıdır. Ancaq bu tələblərin hamısına birlikdə cavab verən əsərlər yüz minlərcə azyaşlı vətəndaşı, yeniyetməni Vətənə, xalqa, onun mənəvi sərvətlərinə, dilinə məhəbbət, ideallarımıza sədaqət ruhunda tərbiyə etmək kimi ali məqsədin həyata keçirilməsinə sanballı töhfə ola bilər" (3, s.70).

Bəkir Nəbiyevin uşaq ədəbiyyatı sahəsində fəal yaradıcılıq axtarışları aparan müəlliflərin nəşr olunan kitablarına yazdığı müqəddimə, onların ümumi yaradıcılığı barədə qələmə aldığı elmi oçerklər mühüm əhəmiyyəti ilə seçilir. Bu tipli yazılar sırasında tanınmış uşaq şairlərindən xalq şairləri Mirvarid Dilbazinin, Nigar Rəfibəylinin və respublika Dövlət mükafatı laureatı Xanımana Əlibəylinin uşaq ədəbiyyatı sahəsindəki xidmətlərini, gənc nəslin tərbiyəsi sahəsində bu üç xanım şairin yaradıcılığında özünü qabarıq şəkildə göstərən səciyyəvi xüsusiyyətlərin üzə çıxarılması əsas məqsəd və qayə kimi müəyyənləşir. Doğrudur, birinci iki xanım şairin yaradıcılığında haqqında qələmə alınan məqalələrdə müəllif daha çox həmin qələm sahiblərinin poetik irsinə ümumi şəkildə qiymət verməyə çalışır, belə bir şeir çələngində uşaq ədəbiyyatının mövqeyi məsələsindən də müəyyən qədər bəhs etməyə cəhd göstərir.

Bəkir Nəbiyev tanınmış uşaq şairi Xanımana Əlibəylinin iki cildlik "Seçilmiş əsərləri"nə yazdığı "Uşaq ədəbiyyatımızın xanım anası" adlı müqəddimə əslində öz janrına və xarakterinə görə daha çox portret oçerki xatırladır. Burada uşaq ədəbiyyatı sahəsində ardıcıl və məhsuldar fəaliyyət göstərən şairin yaradıcılıq tərcümeyi-halına məxsus ən incə detal və təfərrüatları zəngin fakt və materiallar əsasında təhlilə cəlb edilir. Biz burada Xanımana Əlibəylini yaradıcılıq tərcümeyi-halı ifadəsini elə də təsadüfi olaraq işlətmədik. Əslində burada şairin yaradıcılıq tərcümeyi-halına əsaslı şəkildə təsir göstərən ailə mühitinin, valideynlərin ədəbiyyat və sənət məsələlərinə həssas münasibətinin gələcək həkim-şairin dünyagörüşünə və ruhuna aşıladığı yüksək əxlaqi-mənəvi dəyərləri də kifayət qədər görməyə və təsdiqləməyə imkan verir.

Tənqidçi Xanımana Əlibəylinin şair fərdiyyətinə məxsus keyfiyyətlərə toxunaraq belə bir qənaətə gələrək yazır: "Xanımana böyük arzular, yüksək amallar şairi idi. O, bütün vətən balalarının azad, şən, ağıllı, mədəni, hazırcavab, tərbiyəli, təmizkar, ətrafdakılara qarşı diqqətli, həssas, ehtiyacı olanlara kömək əlini uzadan nəcib və xeyirxah insanlar kimi böyümələrini istəyirdi. Özünün 70 ilin civarında davam etmiş yaradıcılıq yollarında şair həmişə bu məqsədə qulluq edirdi. Lakin onun sənətkar gözü öz əziz övladları qədər sevdiyi vətən balaları arasında bəzi yalançıları, gopçuları, xəsisləri, qorxaqları, paxılları da görür, onların da ailədə, bağçada, məktəbdə, cəmiyyətdə tərbiyələnib püxtələşməsinə, yaramaz xüsusiyyətlərdən uzaqlaşmalarına, xalqın güvənc yeri olan vətəndaşlar kimi yetişməsinə çalışırdı. Bu deyilənlər yaradıcılıq aləmində asanlıqla əldə edilməsi mümkün olan mətləblər deyil" (4, s.290).

Bu prinsipial müddəalardan çıxış edərək Bəkir Nəbiyev şairin epik səpkidə qələmə alınan poemalarının, uşaq dramlarının mövzu və sənətkarlıq məsələlərinə münasibət bildirir, gənc nəslin təlim və tərbiyəsində bu zəngin irsin gördüyü və görə biləcəyi müsbət təsir üzərində ətraflı təhlil və ümumiləşmələr aparılır.

Uşaq ədəbiyyatının müasir vəziyyəti, onun qarşısında duran mühüm yaradıcılıq problemlərinin çözülməsi həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuş, gənc nəslin formalaşmasında, onların cəmiyyətin fəal bir üzvü kimi yetişməsində müstəsna roluna dəyər verilməsi bu gün də öz aktuallığını qoruyub saxlayır, akademik Bəkir Nəbiyevin elmi-nəzəri irsində bu sahənin prioritet istiqamətlərdən biri kimi müəyyənləşməsi belə bir zərurətdən irəli gəlirdi.

**Məqalənin aktuallığı.** Uşaq ədəbiyyatının müasir vəziyyəti, onun qarşısında duran mühüm yaradıcılıq problemlərinin çözülməsi və gənc nəslin formalaşmasında, onların cəmiyyətin fəal bir üzvü kimi yetişməsində müstəsna roluna dəyər verilməsi məqalənin aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə dərsliyin vəzifə və funksiyaları, şagirdlərə ilk bilik və məlumatların aşılanmasında əvəzsiz rolu izah və şərh olunur. Bəkir Nəbiyevin uşaq ədəbiyyatı sahəsində fəal yaradıcılıq axtarışları aparan müəlliflərin nəşr olunan kitablarına yazdığı müqəddimə, onların ümumi yaradıcılığı barədə qələmə aldığı elmi oçerklər mühüm əhəmiyyəti ilə seçilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən magistrant, doktorant və dissertantların elmi işlərində istifadə oluna bilər.

## Ədəbiyyat

1. Vurğun, S.Y. Əsərləri (Məqalə, məruzə, nitq, təbrik və oçerklər): [6 cilddə] / Red. Kamal Talıbzadə. - Bakı: Elm, c. 5.- 1972, - 426 s.

2. Nəbiyev, B.Ə. Dörd uşaq kitabı haqqında // B.Nəbiyev. -Bakı: Azərbaycan, - 1954. №8, - s. 141-142,

3. Nəbiyev, B.Ə. Özümüzdən başlayaq / B.Nəbiyev. - Bakı: Elm, - 1990. - 292 s.

4. Nəbiyev, B.Ə. Hərənin öz yolu var... / B.Nəbiyev. - Bakı: Çinar-Çap, - 2008. - 466 s.

**А.Д. Гусейнова**

## Проблемы детской литературы в исследовании Бакира Набиева

## Резюме

В статье приводятся работы Бакира Набиева по детской литературе. Первые труды ученого датируются первой половиной 50-х годов прошлого века. Это отличный подарок для маленьких детей. Он особенно чувствителен к детскому творчеству. Критик проявил особый подход к вопросам написания в детских книгах. Б.Набиев подготовил интересные работы для студентов по формированию детского мировоззрения.

**A.D. Guseynova**

## Problems of children's literature in research by Bakir Nabiyev

## Summary

The article presents the works of Bakir Nabiyev in children's literature. The first scientist's works belong to the first half of the 50s of the last century. This is a great gift for young children. It is especially sensitive to children's creativity. The critic has a special approach to children's books. B. Nabiyev has prepared for students interesting work related to the formation of children outlook.

**Redaksiyaya daxil olub:** 10.02.2020